"TƏSDİQ EDİRƏM"
Naxçıvan Dövlət Universitetinin
rektoru Elbrus İsayev
"03" mart 2020-ci il

Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının
"27" fevral 2020-ci il tarixli
"06" saylı qərarı ilə təsdiq edilmişdir.

# YUSİF MƏMMƏDƏLİYEV ADINA ELMİ-TƏDQİQAT LABORATORİYASININ

## ƏSASNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. Naxçıvan Dövlət Universitetinin (bundan sonra – NDU) "Yusif Məmmədəliyev adına elmi-tədqiqat laboratoriyasının" (bundan sonra – Laboratoriya) NDU-nun fəaliyyət istiqamətlərini prioritet seçməklə, təbiət və tibb elmləri sahəsində fitoterapiya və apiterapiyaya əsalanan fundamental və tətbiqi tədqiqatlar üzrə müasir texnologiyalar və tədqiqat üsullarının köməyi ilə araşdırmalar aparan, əldə edilən nəticələrin tədris prosesində və praktikanın başqa sahələrində istifadə olunması üçün müvafiq təkliflər verən struktur bölmədir.

1.2. Laboratoriyanın fəaliyyəti mövcud qanunvericiliyə, o cümlədən Azərbaycan Elm və Təhsil Nazirliyinin müvafiq qərar, əmr və sərəncamlarına, NDU-nun Nizamnaməsinə, Elmi Şuranın qərarlarına, rektorun əmr və sərəncamlarına həmçinin bu Əsasnaməyə uyğun təşkil edilir.

1.3. Laboratoriya öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən NDU-nun müvafiq struktur bölmələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir, Azərbaycan Elm və Təhsil Nazirliyinin elmi-tədqiqat institutları, başqa elmi

müəssisələr və ali məktəblər, qeyri-hökumət təşkilatları, xarici elm və təhsil qurumları ilə əməkdaşlıq edir, birgə tədqiqatlar aparır.

1.4. Laboratoriya Elm və Təhsil Nazirliyinin razılığı ilə NDU-nun Elmi Şurasının qərarı əsasında yaradılır və ləğv edilir.

**2. Laboratoriyanın fəaliyyətinin məqsədi və vəzifələri**

2.1. Laboratoriyanın fəaliyyətinin məqsədi Kimya və uyğun elm sahələrinin tədqiqat istiqamətləri, o cümlədən bilavasitə universitetin fəaliyyət sahəsi ilə bağlı tədqiqatların aparılmasında iştirak etməklə NDU-nun elmi-tədqiqat sahəsində nailiyyətlərinin yüksəldilməsi, elmi - pedaqoji potensialının daha da gücləndirilməsindən ibarətdir.

**2.2. Laboratoriyanın vəzifələri**

2.2.1. NDU-nun elmi-pedaqoji fəaliyyətinin inkişafında, elmi kadrların hazırlanmasında fəaliyyət göstərmək;

2.2.2. Müxtəlif elmi istiqamətlər üzrə aktual problem və mövzularla bağlı təkliflər hazırlamaq, müvafiq tədqiqat işlərini yerinə yetirmək;

2.2.3. NDU-nun müvafiq struktur bölmələri ilə səmərəli əlaqələr yaratmaq, professor – müəllim heyətini, tələbə, magistrant və doktorantları laboratoriyada aparılan elmi tədqiqatlara cəlb etmək;

2.2.4. Elmi-tədqiqat nəticələrini müzakirə etmək, həmçinin elmi konfrans, seminar, dəyirmi masa, mühazirə və s. formatda tədbirlər keçirmək, bu sahədə müxtəlif elm və təhsil müəssisələri, tanınmış alim və mütəxəssislərlə müntəzəm əməkdaşlıq etmək;

2.2.5. Elm, təhsil, innovasiya mərkəzlərinin qrant layihələri, proqram və müsabiqələri çərçivəsində müstəqil və birgə elmi-tədqiqat işləri aparmaq;

2.2.6. Beynəlxalq elmi əlaqələrin davamlı inkişafı üçün ardıcıl tədbirlər görmək, nəzəri və praktiki əhəmiyyət kəsb edən birgə proqram və layihələr həyata keçirmək;

2.2.7. NDU-da ali təhsilin elmi problemlərinin həllində, tədqiqatın nəticələrinin tədris prosesinə tətbiqində və onun təkmilləşdirilməsində iştirak etmək;

2.2.8. NDU-da elmi fəaliyyətin və tədris prosesinin təşkili ilə bağlı vəziyyəti öyrənmək məqsədilə sorğular keçirmək, təhlillər aparmaq, nəticələrə dair rəy və təkliflər hazırlayıb, rəhbərliyə təqdim emək;

2.2.9. Laboratoriya əməkdaşlarının elmi fəaliyyətinin təşviq edilməsi və ixtisas səviyyəsinin artırılması üçün tədbirlər görmək;

2.2.10. Laboratoriyanın illik fəaliyyət planını və görülmüş işlərin hesabatını hazırlayıb rəhbərliyə təqdim etmək;

2.2.11. Bu əsasnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**3. Laboratoriyanın hüquqları:**

3.1. Laboratoriyada həyata keçiriləcək elmi - tədqiqat mövzularının və elmi rəhbərlərin müəyyənləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq və elmi-tədqiqat işlərinin aparılmasına şərait yaratmaq;

3.2. Müasir beynəlxalq praktikanın tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin müvafiq elm və təhsil qurumları ilə əməkdaşlıq əsasında onların bu sahədə təcrübəsini öyrənmək;

3.3. Fəaliyyət sahələri üzrə rəy və təkliflər vermək, təhlil və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.4. Əməkdaşların fəaliyyətinin stimullaşdırılması məqsədilə rəhbərliyə onların rəğbətləndirilməsinə dair təqdimat vermək, fərqlənənlərin həvəsləndirilməsi üçün başqa tədbirlər görmək;

3.5. Laboratoriyanın Əsasnaməsi ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**4. Laboratoriyanın idarə olunması və strukturu**

4.1. Laboratoriya NDU rektorunun əmri ilə vəzifəyə təyin olunan təhkimçi və ya müdir rəhbərlik edir.

4.2. Laboratoriyanın əməkdaşlarını rektor vəzifəyə təyin və vəzifədən azad edir.

4.3. Laboratoriyanın strukturu:

4.4.1. Elektrokimyəvi sintez və tədqiqatlar

4.4.2. Kimyəvi sintez və tədqiqatlar